# Əl-ələ, qəlb-qəlbə

*Düz 101 il əvvəl, 1923-cü il oktyabrın 28-də Mustafa Kamal paşa bu xəbəri Böyük Millət Məclisində elan etmişdi. Qardaş Türkiyə tarixin və zamanın sərt sınaqlarından qeyrətlə keçmiş, bütün müdaxilələri şərəflə dəf etmiş, qan tökərək Türkiyəni dörd bir tərəfdən diş qıcamış dövlətlərin caynağından azad etmişdi.*



## "Əfəndilər, yarın cümhuriyyəti elan edəcəyiz"

Türk milləti öz azadlığını döyüşərək, qan tökərək, şəhidlər verərək qazanmışdı. Tarixdən məlum olduğu kimi, Birinci Dünya müharibəsi (1914-1918) gedişində aldığı ağır məğlubiyyətlər nəticəsində Osmanlı imperiyası nəinki geniş coğrafiyasından məhrum olmuş, hətta özünün tarixi ərazisini, indiki Türkiyənin böyük hissəsini də itirmək təhlükəsi ilə üz-üzə qalmışdı. Belə ağır vəziyyətdə Mustafa Kamal paşa Osmanlı ordusundakı vətənpərvər zabitlərlə birlikdə Türkiyənin qurtuluşu uğrunda savaşa başladı. 1919-cu il mayın 19-da Qara dəniz sahilindəki Samsun şəhərindən başlanan mücadilə üç il sürdü. 1919-cu ilin dekabrında Ankaraya gələn Mustafa Kamal bu şəhəri Türkiyə dövlətçiliyi uğrunda mübarizənin mərkəzi elan etdi. Çünki İstanbuldakı iqtidar (Sultan Mehmed Vəhidəddin hökuməti) ölkəyə nəzarəti itirmişdi. 1923-cü il oktyabrın 29-da Mustafa Kamal TBMM-də çıxış edərək Türkiyə Cümhuriyyətinin yarandığını elan etdi. Parlament Mustafa Kamalı ölkənin ilk prezidenti seçdi, ilk hökumətin qurulması isə ordu komandanlarından İsmət İnönüyə tapşırıldı. Mustafa Kamal paşa demişdi: millət öz mənliyini bilməsə, başqa millətlərə yem olar. Türkiyə imperialistlərin, tiranların yemi ola bilməzdi, çünki türkü nə əymək olar, nə də sındırmaq. Uca yaradan türkləri bütün sınaqlardan keçirir, elə bil, onun dözümünü, dəyanətini, səbrini, fədakarlığını yoxlayır və tarix də sübut edir ki, bütün dövrlərin ən ağır məqamlarında türkün dizi qatlanmayıb, biləyi bükülməyib, haqqını və dövlətçiliyini bərpa edib.

Azərbaycan ilə Türkiyə arasında qardaşlığın böyük tarixi var. Ortaq kök, dil, din birliyi, oxşar mədəniyyət, adət və ənənələr düşmənləri əsrlər boyu nə qədər narahat etsə də, bu dəyərləri bir-birindən ayıra bilməyiblər. Bu qardaşlığın kökləri çox dərinlikdədir, o qədər qırılmaz tellərlə bir-birinə bağlıdır ki, dövranın heç bir gərdişi onu poza bilməyib, onlar zamanın ən çətin sınağından şərəflə çıxıblar. Ötən ilin fevralında qardaş Türkiyədə baş verən güclü zəlzələ xəbəri Azərbaycanı sarsıtdı, qəlbimiz parçalandı, dağıntılar altında qalan qardaş-bacılarımıza, körpələrimizə ilk köməyə tələsən millət bu ağır günlərdə türkün yanında dayandı, xalqımız öz duaları, sonsuz məhəbbəti, duyğuları ilə zərərçəkənlərə təskinlik verdilər. Dəhşətli fəlakətin miqyası çox geniş idi, 10 əyalətdə 6 mindən çox ev dağılıb, faciə qurbanlarının sayı çox idi, dağıntılar altından sağ çıxarılanlar yaxınlarını, əzizləri ni axtaran insanların ümidini artırırdı. Təbii fəlakətin ilk saatlarında dövlətimizin başçısı İlham Əliyevin göstərişi ilə xilasedicilər, həkimlər zəlzələ zonalarına göndərildi, orada səyyar hərbi hospitallar qurasdırıldı, zərərçəkənlərə yardımlar yola salındı. Bir millət, iki dövlətin bütün qurumları əlaqəli şəkildə insanların xilas edilməsinə, dağıntıların aradan qaldırılmasına, yaralılara tibbi xidmət göstərilməsinə çalışdılar. Xeyirxahlıq missiyası ilə dünyada tanınan Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva türk xalqına başsağlığı verib və onun təşəbbüsü ilə tələb olunan ən zəruri dərman preparatlarının, isti geyimlərin, ərzaq məhsullarının, sobaların, generatorların zəlzələ bölgəsinə çatdırılması üçün maşın karvanları yola salınırdı. Azərbaycan xalqı ayaqdadır, dəhşətli itkilərə gözyaşı tökür, qardaş ölkəyə yardım etmək üçün insanlar birlik nümayiş etdirirdilər. Bakı şəhərinin bir neçə guşəsində yardım toplama məntəqələrində könüllülər, qadınlar, gənclər gecə-gündüz çalışaraq imdad gözləyən qardaşlarımıza hər türlü məmulatlar göndərirdilər. Ərzaq bağlamaları, geyimləri, yorğan-döşəyi, ayaqqabıları və digər zəruri əşyaları toplama məntəqələrinə daşıyanların ardı-arası kəsilmir, yaşlı bir qadının dediyi kimi, qardaş-bacılarımız soyuqda, şaxtada qaldığı bir vaxtda biz burada necə isti yerdə yata bilərik, dincələ bilərik, ağrımızı, kədərimizi bir yerdə çəkirik. Türkiyədə ötən ilin yayında baş vermiş meşə yanğınları zamanı ilk yardım göstərən Azərbaycan qardaşlığın və birliyin sarsılmaz təməl üzərində olduğunu bir daha göstərdi. İki qardaş xalq aləmi qovuran yanğına qarşı çiyin-çiyinə mücadilə etdi. Həmin yanğınlar zamanı azərbaycanlı yanğınsöndürənin alovların ağuşundan xilas etdiyi Türk bayrağını necə böyük məhəbbətlə, qürurla sinəsinə sıxdığının şahidi olduq. 2021-ci ildə Qarabağın ürəyi, Azərbaycanın mədəniyyət paytaxtında iki qardaş ölkə arasında imzalanan Şuşa Bəyannaməsi qardaş ölkələr arasında son iki yüz illik tarixin yeni mərhələsinə çevrildi.

Keçən əsrin əvvəllərində Azərbaycan, Bakı qəzası, o cümlədən Qarabağ erməni terroruna və işğalına məruz qalanda ilk köməyə gələn Osmanlı Türkiyəsi olub. 1918-ci ildə Bakının azad edilməsindən sonra Nuru Paşa başda olmaqla əsas özəyi Osmanlı döyüşçülərindən ibarət olan Qafqaz İslam Ordusu Qarabağ, Şuşa istiqamətində erməni barbarları ilə döyüşüb. Mənbələrdə göstərildiyi kimi, 1918-ci il noyabrın 1-də Nuru Paşa Ağdama gələrək döyüş hazırlıqlarına başlayıb, noyabrın 4-də Əsgəran-Şuşa istiqamətində və Xaçın çayı boyunca yerləşən erməni işğalçılarının mövqelərinə hücum əməliyyatı həyata keçirib. Fərrux, Daşbaşı, Sırxavənd, İsmayılbəyli, Ballı qaya, Koladəy, Dovşanlı, Vəng istiqamətlərində də erməni daşnakları ilə Qafqaz İslam Ordusu arasında qızğın döyüşlər gedib. Qafqaz İslam Ordusuna məxsus 9-cu və 106-cı türk alaylarının mühüm bir qismi və qərargahı Xaçınçayın kənarında mövqe tutmuşdu. Bu yer sonradan xalq arasında "Osmanlı təpəsi" adlandırılıb. Buradan Yeddixırman, Fərrux dağı və Vəngə qədər Xaçınboyu kəndləri asanlıqla nəzarətdə saxlamaq və idarə etmək olurdu. Döyüşlərdə həlak olan əsgərlər məhz həmin ərazidə dəfn ediliblər. 1915-ci ildə Türkiyə dörd ölkə tərəfindən hücuma məruz qalanda Azərbaycandan köməyə gedən insanlar Çanaqqala döyüşlərində öz həyatlarını bu torpaqlara fəda ediblər. Əslində bu qardaşlığı əks etdirən təqdirəlayiq hadisələr, qiymətli nümunələr, həyatın içindən gələn örnəklər daha çoxdur. Azərbaycan Prezidenti İlham Əliyev fevralın 8-də Türkiyə Respublikasının ölkəmizdəki səfirliyində olub, Türkiyədə baş vermiş zəlzələ nəticəsində çox sayda insanın həlak olması ilə əlaqədar başsağlığı verib. Dövlətimizin başçısı Türkiyə-Azərbaycan artıq bir yumruqdur, bir ürəkdir, bir candır. Biz belə görürük, Türkiyə və Azərbaycan vətəndaşları da belə görürlər. Bu ağır günlərdə Türkiyənin yanında olmaq bizim üçün böyük şərəfdir. Əminəm ki, Türkiyə bu acı sınaqdan da şərəflə çıxacaq, bunu da aşacaq. Ancaq bu, inanılmaz dərəcədə böyük faciədir. Hər bir qurtarılan can elə bil ki, bizə bir dünyanı bağışlayır - sözləri xalqımızın döyünən nəbzi kimi çox qiymətli və çox dəyərlidir. 2020-ci ilin payızında işğaldan azad edilən Qarabağda tarixi baxımdan çox qiymətli, mənəvi baxımdan isə qürurverici və şərəfli bir mənzərənin şahidi olduq. Qardaş Türkiyənin mənəvi və siyasi dəstəyi sayəsində Azərbaycan işğalçılara qarşı apardığı Vətən müharibəsində parlaq qələbə qazandı. Cəmi 44 gün ərzində dünyanı heyrətə gətirən Azərbaycan hərbçilərinin döyüş taktikası və ən müasir hərbi silahlardan istifadə etməsi, vətənpərvər gənclərin qəhrəmanlığı, xalqın sevgi, inam və birmənalı dəstəyini qazanmış Prezident İlham Əliyevin sərkərdə qətiyyəti tarixin səhifələrinə qızıl hərflərlə həkk olundu.

Şuşa Bəyannaməsi ümumi maraqların qorunmasında hər iki ölkənin siyasi, iqtisadi, müdafiə, mədəni, humanitar, səhiyyə, təhsil, sosial, gənclər və idman sahəsindəki imkan və potensialların birləşdirilməsinə yeni bir təkan verdi. Ötən ilin yayında Şuşada, sözün əsl mənasında, həqiqət anı yaşandı, ortaq tariximizin yeni bir mərhələsi başlandı. Prezident İlham Əliyevin həmkarı Rəcəb Tayyib Ərdoğanla işğaldan azad edilmiş Cəbrayılda olarkən dediyi kimi: "Bu şanlı tarix bizim müştərək tariximizdir. Türkiyə-Azərbaycan birliyi bir daha zəfər çaldı. Bu gün biz bərpa edilən Qarabağda və Zəngəzurda yenə də Türkiyə-Azərbaycan birliyini görürük... Hər yerdə Azərbaycan və Türkiyə bayraqları bir yerdə dalğalanır... Bu birlik əcdadlarımızdan qalan mirasdır, onların vəsiyyətidir və zəmanəmizin tələbidir". Prezident Ərdoğanın azad yurd yerimizdə can qardaşlarına xitabı, "Rəbbimiz birliyimizi, bərabərliyimizi əbədi etsin! Yaşasın Azərbaycan-Türkiyə qardaşlığı!" sözləri "bir millət iki dövlət"in əl-ələ, qəlb-qəlbə böyük Turana doğru irəlilədiyini göstərdi. Cümhuriyyət gününüz mübarək olsun!

**Salman ALIOĞLU,**
**"Respublika".**